Dərslik və nəşriyyat şöbəsinin əməkdaşları yeni il münasibəti ilə sizləri təbrik edir,
2011-ci ildə hər birinizə nailiyyətlər arzulayırlar!!!

Dərslik və nəşriyyat şöbəsinin 2010-cu ilin yekununa dair



HESABATI

Hesabat dövründə şöbədə 7 nəfər əməkdaş fəaliyyət göstərmişdir.

Faiq Şahbazlı	şöbə müdiri
Hüseyn Quliyev	baş məsləhətçi
Esmira Şıxəliyeva	baş məsləhətçi
Rüxsarə Əliyeva	aparıcı məsləhətçi
Günel Seyidova	aparıcı məsləhətçi
Zülfiyyə Rzayeva	aparıcı məsləhətçi
Vüsalə Həsənova	aparıcı məsləhətçi

Dərslik və nəşriyyat şöbəsi 2010-cu ildə təsdiq olunmuş plana uyğun fəaliyyət göstərmişdir.

İŞ PLANI
3 istiqamət üzrə müəyyənləşdirilib

Kollegiyada baxılacaq məsələlər

Nazirin yanında baxılacaq məsələlər

Digər məsələlər



Kollegiyada baxılacaq məsələlər

2010-2011-ci tədris ilinə ümumtəhsil məktəblərinin dərslik və dərslik komplektləri ilə təminatı vəziyyəti



Nazirin yanında baxılacaq məsələlər

Ümumtəhsil məktəbləri üçün 2010-2011-ci tədris ilinə təlim dilləri üzrə çap ediləcək dərsliklərin müəyyənləşdirilməsi

2010-2011-ci tədris ilində nəşri nəzərdə tutulan dərslik və müəllim üçün metodik vəsaitlərin siyahısının, tirajının, həcminin və çap formatlarının hazırlanması

Təlim Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşrə hazırlanması

2010-2011-ci tədris ilinə nəşri nəzərdə tutulan dərsliklərin çapı və yerlərə çatdırılması vəziyyəti



Digər məsələlər

- Ümumtəhsil məktəb dərsliklərinin nəşrə və çapa hazırlanması məqsədilə fənlər üzrə işçi qruplarının yaradılması və işin təşkili

- Ümumtəhsil məktəb dərsliklərinin nəşri, çapı və yerlərə çatdırılması üzrə satınalma müqavilələrinin hazırlanması və onların icrasının təmin edilməsinin təşkili



- Rayon (şəhər) təhsil şöbələri, internat məktəb, gimnaziya, lisey və digər təhsil müəssisələri, Gürcüstan və Dağıstanın təlim Azərbaycan dilində olan məktəbləri və eləcə də "Bazar günü" məktəbləri nəzərə alınmaqla şagird kontingentinə uyğun çapı sifariş verilmiş dərslik və dərslik komplektlərinin bölgüsünün hazırlanması

- Dərslik və dərslik komplektlərinin bölgüyə uyğun ünvanına çatdırılması işinin təşkili

- 2011-2012-ci tədris ilinə ümumtəhsil məktəblərinin IV sinifləri üçün kurikulum əsasında dərslik komplektlərinin hazırlanması məqsədilə tədbirlərin görülməsi

- Dərslik komplektlərinin tələb olunan meyarlar üzrə qiymətləndirilməsinin şəffaf,obyektiv aparılması üçün DQŞ-nin üzvlərinin, ekspert qruplarının seminar-treninqlərinin təşkili

- Ümumtəhsil məktəblərinin III sinifləri üçün kurikulum əsasında dərslik komplektlərinin ”Əsas şərtlər toplusu”na uyğun hazırlanması və tender təkliflərinin təqdim edilməsi üzrə nəşriyyatlarla seminar-müşavirələrin keçirilməsi

- III sinif dərslik komplektlərinə dair Tender Komissiyasına təqdim olunan təkliflərin qəbulu,sənədləşdirilməsi, tender prosedurunun mövcud qanunvericiliyə uyğun təşkili və keçirilməsi

- Tender proseduru baş tutmuş lotlar üzrə dərslik komplektlərinin qiymətləndirilmək üçün Dərslikləri Qiymətləndirmə Şurasına təqdim olunmasının təşkili

- Tender proseduru baş tutmayan lotlar üzrə dərslik komplektlərinin çapının təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi

-DQŞ tərəfindən aparılmış qiymətləndirmənin nəticələrinə görə keçid balını toplamış,Tender komissiyasının qərarına əsasən maliyyə təklifi qəbul edilmiş və qalib hesab olunmuş dərslik komplektlərinə qrif verilməsi və onların çapı üzrə nəşriyyat-poliqrafiya müəssisələri ilə müvafiq satınalma müqavilələrinin bağlanması

-“Ümumi təhsil sistemində dərslik siyasəti” və onun tərkib hissəsi olan sənədlərin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması

- Dərslik və dərslik komplektlərinə əlavə kimi ayrı-ayrı fənlər üzrə metodik, yardımçı və əyani təlim vəsaitlərinin hazırlanması, çapı və məktəblərin onlarla təminatı sahəsində müvafiq tədbirlərin görülməsi

- Xüsusi tipli məktəblər üçün və milli azlıqların dillərində tədris ədəbiyyatının hazırlanması və çapı ilə bağlı müvafiq tədbirlərin görülməsi

- Dövlət vəsaiti hesabına çap olunan ədəbiyyatın ümumtəhsil məktəb kitabxanaları tərəfindən qəbulu, uçota alınması, şagirdlərə paylanılması,qorunub saxlanılması və silinməsi ilə bağlı təlimati məktubların hazırlanması, yerlərə çatdırılması və bu işə nəzarətin təşkili

- Ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti, dərslik kitabxana fondlarınını yaradılması və istifadəsi vəziyyətinin yerlərdə öyrənilməsi,əməli köməklik göstərilməsi, nəticələrin müzakirəsi və təkliflərin hazırlanması



- Gürcüstan və Dağıstanın təlim Azərbaycan dilində olan məktəblərində, eləcə də MDB respublikalarında və digər xarici ölkələrdə fəaliyyət göstərən “Bazar günü” məktəblərində təhsil alan soydaşlarımızın dərsliklərlə, tədris vəsaitləri ilə təmin edilməsinin təşkili

-Xarici ölkələrdən onların Azərbaycandakı nümayəndəliklərinin ünvanına respublikanın tədris müəssisələri üçün göndərilən dərslik, tədris-metodik və bədii ədəbiyyatın ekspertizasının təşkili

- Təhsilin bütün pillələri üçün hazırlanmış tədris ədəbiyyatına nəşr hüququnun (qrifin) verilməsi işinin təşkili

proqram
dərslik
dərs vəsaiti
metodik vəsait



- Məktəb kitabxanaları üçün satınalınacaq təlim və oxu materiallarının sifarişinin müəyyənləşdirilməsi, kataloqun və məktəb sorğu vərəqinin hazırlanması və sorğu əsasında təlim və oxu materiallarının sifarişinin müəyyənləşdirilməsi, məktəblər arasında bölgüsünün aparılması

- Məktəb kitabxanalarının oxu materialları, o cümlədən bədii, ensiklopedik və sorğu-məlumat xarakterli və digər ədəbiyyatlarla təmin edilməsi

- Ümumtəhsil məktəb kitabxanalarında təlim və oxu materiallarından istifadənin monitorinqinin nəticələrinin ümumiləşdirilməsi



- Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ayrı-ayrı fənlər üzrə hazırladığı test və digər vəsaitlərin mövcud proqram və dərsliklərə müvafiqliyinin araşdırılması, təhlili və onlara qrif verilməsi

- Kütləvi informasiya vasitələrində, o cümlədən pedaqoji mətbuatda, Nazirliyin internet saytında dərslik, dərslik komplektlərinin hazırlanması, çapı barədə sistematik məlumatların və maarifləndirici materialların verilməsinin təşkili

-Şöbəyə daxil olan ərizə və məktublara baxılması, vətəndaşların qəbulu

Vəzifə bölgüsü



Şahbazlı Faiq Şaban oğlu
şöbə müdiri

- Şöbənin işinə ümumi rəhbərlik və nəzarət;
- Cari və perspektiv planların, kollegiyada müzakirə ediləcək məsələlərin hazırlanması və icrasına rəhbərlik, direktiv sənədlərin,o cümlədən Təhsil Nazirliyinin nəşr məsələləri üzrə əmr və sərəncamlarının yerinə yetirilməsinin təmin edilməsi;
- Respublikadakı ümumtəhsil məktəbləri və respublikadan kənarda fəaliyyət göstərən Azərbaycan məktəblərinin dərsliklərlə təminatının həyata keçirilməsinin təşkili;
- Nazirliyin struktur bölmələri ilə şöbənin işinin əlaqələndirilməsi;
- Dərslikləri çap edən nəşriyyatlarla işin təşkili;
- Ümumtəhsil, ali, orta ixtisas və peşə məktəblərinin proqram, dərslik və dərs vəsaitlərinin mövcud qaydalara uyğun təsdiqinin təşkili;
- Milli Kurikulum əsasında dərslik hazırlığının təmin edilməsinin təşkili;
- Tenderlərin “Dövlət Satınalmalar haqqında” Qanununa uyğun keçirilməsinə dair sənədlərin işlənilməsinin təşkili və buna nəzarət;
- Beynəlxalq təşkilatlarla işlərin qurulmasının təşkili;
- Vətəndaşların qəbulu, nların ərizə və şikayətlərinə, müraciətlərinə müəyyən edilmiş qaydalar əsasında baxılmasının təmin edilməsi;
- Dünya Bankının LƏQ-lə işinin əlaqələndirilməsi;

Quliyev Hüseyn Xələf oğlu
baş məsləhətçi

- Respublikanın ümumtəhsil məktəbləri üçün dərslik və dərs vəsaitlərinin nəşrinin proqnoz və planlaşdırılması üçün məlumatların toplanması və təşkili;
- Ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşrə hazırlanması (Biologiya, kimya fənləri üzrə);
- Daxil olan sifarişlər əsasında dərsliklərin bölgüsünün hazırlanması;
- EMŞ-lar və müəlliflərlə iş;
- Tender sənədlərinin, satınalma müqavilələrinin və yekun aktlarının hazırlanması;
- Dərsliklərin nəşriyyatlardan Maddi Texniki Təchizat İdarəsinə vaxtında təhvil verilməsi və yerlərə göndərilməsi işinə əməli kömək göstərmək;
- Ümumtəhsil məktəb kitabxana fondları, onların iş fəaliyyətinin öyrənilməsi, təhlili,bununla bağlı təlimati sənədlərin hazırlanması;
- Daxil olan ərizə və məktublarla iş;
- Rəhbərliyin göstəriş və sərəncamlarının icrası;
- Vətəndaşların qəbulu;
- Cari məsələlər.

Şıxəliyeva Esmira Əli qızı
baş məsləhətçi

- Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası və Bakı Slavyan Universitetindən daxil olmuş proqram, dərslik və dərs vəsaitlərinə qrif verilməsi üçün sənədlərin hazırlanması;
- Təlim Azərbaycan dilində olan ümumtəhsil məktəbləri üzrə dərsliklərin tərcümə variantları və təlim rus dilində aparılan ümumtəhsil məktəbləri üçün proqram, dərslik və dərs vəsaitlərinin, o cümlədən xarici dil dərslik və proqramlarının əlyazmalarının nəşrə hazırlanması;
- Mövcud dərsliklərin təkmilləşdirilməsi sahəsində verilən tapşırıqların icrası;
- Yeni tipli müxtəlif təmayüllü tədris müəssisələri üçün proqram, dərslik,dərs vəsaitləri və elektron dərsliklərin yaradılması işinin müvafiq şöbələrlə əlaqələndirilməsi;
- Ümumi təhsil pilləsi üçün dərsliklərin əlyazmalarının müzakirəsi və nəticələrin ümumiləşdirilməsi;
- Daxil olan ərizə və məktublarla iş;
- Vətəndaşların qəbulu;
- EMŞ-lar, nəşriyyatlar və müəlliflərlə iş;
- Rəhbərliyin göstəriş və sərəncamlarının icrası
- Cari məsələlər.



Əliyeva Rüxsarə Məcid qızı

aparıcı məsləhətçi

- Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər UniversitetiAzərbaycan Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Tibb Universiteti;, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Müəllimlər İnstitutundan qrif almaq üçün daxil olmuş proqram, dərslik və dərs vəsaitlərinin sənədləşdirilməsi;
- EMŞ-lar, nəşriyyatlar və müəlliflərlə iş;
  Respublikanın peşə məktəbləri üçün hazırlanmiş tədris-metodiki ədəbiyyatların təsdiqinin Nazirliyin uyğun qurumları ilə təşkilinə kömək;
- Ümumtəhsil məktəb dərsliklərinin nəşrə hazırlanması (Azərbaycan dili (Azərbaycan və rus bölmələrində), Ədəbiyyat, Coğrafiya fənləri üzrə);
- Təlim Azərbaycan dilində aparılan ümumtəhsil məktəblərinin dərslikləri ilə bağlı TQDK və yerlərdən gələn rəy və təkliflərin təhlili və ümumləşdirilməsi;
- Daxil olan ərizə və məktublarla iş;
- Vətəndaşların qəbulu;
- Rəhbərliyin göstəriş və sərəncamlarının icrası;
- Cari məsələlər.



Seyidova Günel Miryusif qızı

aparıcı məsləhətçi

• Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Milli konservatoriyası, Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Naxçıvan Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Gəncə Texnologiya Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Təhsil Problemləri İnstitutu və digər təşkilatlardan daxil olmuş proqram,dərslik, dərs vəsait və metodik vəsaitlərə qrif verilməsi işinin təşkili;

• Respublikanın məktəbəqədər müəssisələri üçün tədris-metodiki ədəbiyyatın nəşrə hazırlanması işinin əlaqələndirilməsi;

• Mövcud dərsliklərin təkmilləşdirilməsi sahəsində verilən tapşırıqların icrası;

• Ümumi təhsil pilləsi üçün dərsliklərin əlyazmalarının müzakirəsi və nəticələrin ümumiləşdirilməsi;

• Ümumtəhsil məktəbləri üçün dərsliklərin, o cümlədən Milli kurikulum əsasında yazılmış dərsliklərin nəşrə hazırlanması; (ibtidai sinif dərslikləri- I sinif “Riyaziyyat”, “Ana dili”, “Həyat bilgisi”, “İnformatika” (I sinif), “Azərbaycan dili”, “Musiqi”, “Riyaziyyat” (III sinif); yuxarı sinif dərslikləri- “Fizika” (IX sinif), “Həndəsə” (VIII-XI siniflər), “İnformatika” (XI sinif), “Astronomiya” (XI sinif))

•Rəhbərliyin göstəriş və sərəncamlarının icrası;

•Vətəndaşların qəbulu;

•Daxil olan ərizə və məktublarla iş;

•Cari məsələlər

.



Rzayeva Zülfiyyə İnşallah qızı
aparıcı məsləhətçi

- Ümumtəhsil məktəb kitabxana fondları, onların iş fəaliyyərinin öyrənilməsi, təhlili, bununla bağlı təlimati sənədlərin hazırlanması;
- Ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşrə hazırlanması (III siniflər üçün “Həyat bilgisi”, VI siniflər üçün “Qədim Dünya tarixi”, VIII siniflər üçün “Orta əsrlər tarixi” və “İnsan və cəmiyyət”, IX siniflər üçün “Azərbaycan Respublikasının Konstitusiyası” və “İnsan və cəmiyyət”, X siniflər üçün “Yeni tarix”, XI siniflər üçün “Ən yeni tarix”);
- Tender sənədlərinin hazırlanması;
- EMŞ-lar, nəşriyyatlar və müəlliflərlə iş
- Azərbaycan Milli Elmlər Akademiyası, Sumqayıt Dövlət Universiteti,Lənkəran Dövlət Universiteti,Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti,Azərbaycan Kooperasiya Universiteti, Mingəçevir Politexnik İnstitutu,xüsusi təyinatlı ali məktəblər,qeyri-dövlət ali təhsil müəssisələri,orta ixtisas təhsili müəssisələri,texniki-peşə müəssisələri və digər təşkilatlardan daxil olmuş proqram,dərslik, dərs vəsaitləri və metodik vəsaitlərinin əlyazmalarının Təhsil Nazirliyinin müvafiq EMŞ-larında müzakirəyə göndərilməsi və onlara qrif verilməsi üçün sənədlərin hazırlanması;
- Mövcud dərsliklərin təkmilləşdirilməsi sahəsində verilən tapşırıqların icrası;
- Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014) LƏQ ilə işlərin əlaqələndirilməsi, yarımillik və rüblük hesabatların hazırlanması;
- Rəhbərliyin göstəriş və sərəncamlarının icrası;
- Cari məsələlər.



Həsənova Vüsalə Firdovsi qızı

aparıcı məsləhətçi

- Ümumtəhsil məktəbləri üçün dərsliklərin nəşrə hazırlanması;
- Daxil olan sifarişlər əsasında dərsliklərin bölgüsünün hazırlanması;
- Ölkələrarası dərslik mübadiləsinin təşkili;
- Orta ixtisas məktəblərindən daxil olmuş proqram, dərslik və dərs vəsaitlərinin əlyazmalarının Təhsil Nazirliyinin müvafiq EMŞ-da müzakirəyə göndərilməsi və onlara qrif verilməsi üçün sənədlərin hazırlanması;
- Ümumtəhsil məktəbləri üçün dərsliklərin, o cümlədən Milli kurikulum əsasında yazılmış dərsliklərin nəşrə hazırlanması (texnologiya, informatika, riyaziyyat fənləri üzrə dərsliklər);
- Daxil olan ərizə və məktublarla iş;
- Vətəndaşların qəbulu;
- Rəhbərliyin göstəriş və sərəncamlarının icrası;
- Cari məsələlər.



2010/2011-ci tədris ilinə
I, III, VI və VIII-XI siniflər üçün
nəşri nəzərdə tutulan
dərslik və dərslik komplektləri

“Ümumi təhsil sistemində dərslik siyasəti”

“Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)”

“Dərsliklərin nəşri, çapı və paylanması qaydaları"na

uyğun olaraq

Respublikanın mövcud şagird kontingenti (proqnoz əsasında), eləcə də Gürcüstanın və Dağıstanın təlim Azərbaycan dilində olan məktəblərinin,xarici ölkələrdəki “Bazar günü” məktəblərinin tələbatı nəzərə alınmaqla müzakirə edilmiş, onların siyahısı və tirajı müəyyənləşdirilmişdir.



Nazirliyin 02 fevral 2010-cu il tarixli, 127 nömrəli əmri ilə

I, III, VI və VIII-XI siniflər üçün 111 adda

4506650 nüsxə dərsliyin və müəllim üçün metodik vəsaitin

Azərbaycan bölməsi üçün
56 adda
4106400 nüsxə

rus bölməsi üçün
55 adda
400250 nüsxə

- siyahısı,
- tirajı
- həcmi
- çap formatları

təsdiq edilmiş, nəşr və çap məsələlərinin həllinə başlanılmışdır.



Qaydalara müvafiq olaraq:

1-ci siniflər üçün dərsliklərin çapı 30% həcmində nəzərdə tutulub

2-ci siniflər üçün dərslik çapı nəzərdə tutulmayıb



Təlim Azərbaycan və rus dillərində olan məktəblərdə III siniflər üçün



OEYD: “Fiziki hazırlıq” fənni üzrə yalnız müəllim üçün metodik vəsait nəzərdə tutulmuşdur.

- Dərslik və nəşriyyat şöbəsində 20 aprel 2010-cu il tarixdə nəşriyyat-poliqrafiya müəssisələrinin rəhbərlərinin iştirakı ilə iclas keçirilmiş, tenderin “Əsas şərtlər toplusu”nun tələbləri, təkliflərin verilmə qaydaları bir daha izah edilmiş, təlimati biliklər verilmişdir.

- Həmin iclasdakı müzakirələrin nəticəsi olaraq “Dövlət satınalmaları haqqında” Qanunun 30.2-ci maddəsinə və “Əsas şərtlər toplusu”nun 8.1-ci maddəsinə uyğun olaraq tender təkliflərinin təqdim olunması ilə bağlı “Əsas şərtlər toplusu”nda dəyişiklik edilmiş və nəşriyyatlara bu barədə rəsmi məktub (№ 48-22-2499/16, 27.04.2010-cu il) təqdim olunmuşdur.

- Hər bir lot üzrə dərslik komplektlərinin maketləri və eləcə də qiymət təklifi zərfləri 06 may 2010-cu il tarixdə qəbul edilmiş və qeydiyyata alınmışdır.

Dərslik komplektlərinin qiymətləndirilməsi meyarları

- Məzmun
- Dil və yazı üslubu
- Təlim strategiyaları
- Metodoloji əsaslandırma
- Dərsin planlaşdırılması
- Dizayn və tərtibat
- İllüstrasiyalar
- Bərabər imkanlar və ətraf mühit məsələləri
- Qiymətləndirmə
- Əlavə materiallar

11 5 2010

"İnformatika" dərslik komplektlərinin qiymətləndirilməsi prosesi

"Azərbaycan dili" dərslik komplektlərinin qiymətləndirilməsi prosesi



5-ci sinif dərsliklərinin 2012-ci ildə kurikulum əsasında hazırlanacağı

nəzərə alınaraq çap olunması planlaşdırılmamışdır

7-ci sinif dərsliklərinin ehtiyatda kifayət qədər olduğu



I, VI və VIII-XI siniflər üçün nəşri və çapı nəzərdə tutulmuşdur:

70 adda dərslik

12 adda 30%

58 adda 105%



1 adda müəllim üçün metodik vəsait 105%

Nazirliyin
“Dərsliklərin nəşrinə hazırlıq işlərinin yaxşılaşdırılması haqqında”
01 mart 2010-cu il tarixli, 250 nömrəli əmrinə əsasən

- müvafiq fənlər üzrə 133 nəfər praktik müəllimin iştirakı ilə işçi qrupları yaradılmış;

- orta məktəb müəllimləri tərəfindən dərsliklərə dair verilmiş rəy və təkliflər şöbə əməkdaşlarının iştirakı ilə müəllif, elmi redaktor və nəşriyyat redaktorları tərəfindən müzakirə olunmuş, dərsliklər üzərində əsaslı iş aparılmış;

- dərsliklərin məzmun və poliqrafik keyfiyyətinə nəzarət etmək üçün şöbənin əməkdaşları arasında bölgü aparılmışdır.

Hüseyn Quliyev - biologiya, kimya fənləri üzrə dərsliklər;

Esmira Şıxəliyeva - təlim rus dilində olan ümumtəhsil məktəbləri üçün bütün dərsliklər, xarici dil dərslikləri;

Rüxsarə Əliyeva - Azərbaycan dili, ədəbiyyat, coğrafiya fənləri üzrə dərsliklər;

Günel Seyidova - ibtidai sinif dərslikləri, fizika, astronomiya, həndəsə, informatika fənləri üzrə dərsliklər;

Zülfiyyə Rzayeva - tarix, Azərbaycan Respublikasının Konstitusiyası, insan və cəmiyyət fənləri üzrə dərsliklər.



Eləcə də:

2010-2011-ci tədris ili üçün dərsliklərin
nəşrə və çapa hazırlanması ilə bağlı geniş müşavirə keçirilmişdir.

Ümumtəhsil məktəb müəllimlərinin, nəşriyyat-poliqrafiya müəssisələrinin rəhbərlərinin, müəllif
və redaktorların iştirakı ilə dərsliklərin həcmi, məzmunu, bədii və texniki tərtibatı barədə məsələlərlə bağlı yığıncaq keçirilmişdir.





Satınalmalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılaraq 2010/2011-ci tədris ilinə (I,VI,VIII-XI siniflər) 70 adda dərsliyin və 1 adda müəllim üçün metodik vəsaitin nəşr və çapı üçün bu vəsaitləri xüsusi nəşretmə hüququna malik olan

- “Çaşıoğlu”
- “Xəzər-Etiket”
- “Aspoliqraf”
- “Təhsil”
- “Altun-Kitab”
- “Bakı”
- “Kövsər”
- “XXI” YNE

nəşriyyat-poliqrafiya müəssisələri ilə birbaşa satınalma müqavilələri bağlanılmışdır.



- Nəşriyyat-poliqrafiya müəssisələri bağlanmış müqavilələrə uyğun olaraq işçi qrupları tərəfindən baxıldıqdan və təkliflər nəzərə alındıqdan sonra dərsliklərin son maketlərini Nazirliyə təsdiq üçün təqdim etmişlər.



- Müqavilə şərtlərinə və götürülmüş öhdəliklərə uyğun olaraq dərslik və müəllim üçün metodik vəsaitlərin çapına və onların Maddi-Texniki Təchizat İdarəsinə tam tirajla təhvil verilməsinə ciddi nəzarət olunmuşdur.



əlavə olaraq



“Kövsər” nəşriyyat-poliqrafiya müəssisəsi

II sinif “Fransız dili”, “Alman dili” və “Ərəb dili” dərslik komplektlərini

“Şərq-Qərb” nəşriyyatı

II sinif Udi dili” (“Nanay muz”) dərsliyini

VIII sinif “Rəsmxət” dərsliyini

“Ərgünəş” kiçik müəssisəsi

Xüsusi məktəblər üçün

Brayl əlifbası ilə 12 adda dərsliyi



çap etmişdir.

I siniflər üçün	“Azərbaycan dili”
II siniflər üçün	“Fransız dili” “Alman dili” “Ərəb dili” “Udi dili”
VIII siniflər	“Rəsmxət”
IX siniflər üçün	“Coğrafiya” “Azərbaycan Respublikasının Konstitusiyası”
XI siniflər üçün	“İnformatika”

dərslikləri yeni nəşrlərdir



Beləliklə:

2010-2011-ci tədris ilinə 127 adda 4637720 ədəd dərslik və müəllim üçün metodik vəsait çap edilmiş,

bölgü əsasında

Nümunə:

№	Rayon (şəhər) TŞ-ləri, internat, məktəb, gimnaziya, lisey və digər təhsil müəssisələrinin adı (təyinat məntəqələri)	I sinif	VI sinif
		Ana dili	Qədim dünya tarixi
1	Bakı şəhəri üzrə Təhsil İdarəsi	8030	26355



yerlərə çatdırılmışdır.

2011-2012-ci tədris ilinə

Elanlar



IV sinif

Ümumi təhsilin kurikulumu əsasında 2011/2012-ci tədris ilinə IV siniflər üçün dərslik komplektlərinin hazırlanması və çapı ilə əlaqədar müvafiq işlər görülmüşdür.

“Azərbaycan müəllimi” qəzetinin
13 mart 2009-cu il tarixli
nömrəsində bildiriş,

“Azərbaycan müəllimi” qəzetinin
09 iyul 2010-cu il,

Xalq” qəzetinin
15 iyul 2010-cu il tarixli
nömrələrində

tender elanı dərc olunmuşdur.

14 lot üzrə 19 adda dərsliyin

21 adda müəllim üçün metodik vəsaitin

19 adda iş dəftərinin hazırlanması və çapı nəzərdə tutulmuşdur

Təhsil Nazirliyinin 29.06.2010-cu il tarixli, 873 nömrəli əmri ilə tender komissiyası yaradılmışdır.

"Əsas şərtlər toplusu" hazırlanmış
Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin,
Satınalmalar üzrə Dövlət Agentliyinin rəy və təklifləri
əsasında müvafiq düzəlişlər aparıldıqdan
sonra Tender Komissiyası tərəfindən
təsdiq edilmişdir.

Tender elanına əsasən 9 nəşriyyat-poliqrafiya müəssisəsisələri
18.08.-20.08. 2010-cu il tarixlərində Nazirliyə müraciətlə müvafiq
sənədləri təqdim etmişlər

Qeyd: **Tender təklifləri olan zərflərin qəbulu 05.04.2011-ci il tarixinə qədər Tender Komissiyasına təhvili nəzərdə tutulur.**

Həmin sənədlər mövcud qaydalara
uyğun olaraq qeydiyyata alınmış və iştirakçılara
"Əsas şərtlər toplusu"
təqdim olunmuşdur.



VII-XI siniflər

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tenderin “Əsas şərtlər toplusu” hazırlanmış, Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin, Satınalmalar üzrə Dövlət Agentliyinin təklifləri nəzərə alınmaqla Tender Komissiyası tərəfindən təsdiq edilmişdir.



Tender elanı

“Azərbaycan müəllimi”

25 iyun 2010 – cu il

“Xalq” qəzeti

26 iyun 2010-cu il

VII-XI siniflər üçün 38 adda dərsliyin hazırlanmasına dair tender elanına uyğun olaraq 8 nəşriyyat-poliqrafiya müəssisəsi 16.07-23.07.2010-cu il tarixlərdə Nazirliyə müraciətlə müvafiq sənədləri təqdim etmişlər. Sənədlər mövcud qaydada qəbul edilmiş, qeydiyyata alınmış, iştirakçılara “Əsas şərtlər toplusu” verilmişdir.

Tender yolu ilə hazırlanması və çap olunması nəzərdə tutulan VII-XI sinif dərsliklərinin Qiymətləndirmə meyarları hazırlanmış və Təhsil Nazirliyinin 14.09.2010-cu il tarxili 1221 nömrəli əmri ilə təsdiq olunmuşdur.

Dərsliklərin qiymətləndirilməsi meyarları

- Məzmun
- Dil
- Təlim strategiyaları
- Dizayn və tərtibat
- İllüstrasiyalar
- Bərabər imkanlar

Proqramlar



- 27 lot üzrə hazırlanacaq 38 adda VII-XI sinif dərsliklərinin (Azərbaycan və rus bölmələri üçün 13 fənn üzrə) fənn proqramlarının yenidən işlənilməsi məqsədilə cari ilin iyun ayında Təhsil naziri cənab Misir Mərdanovun yanında Nazirliyin aidiyyəti qurumlarının əməkdaşlarının, alimlərin, Elmi-Metodik Şuranın aidiyyəti bölmə sədrlərinin, proqram müəlliflərinin, orta məktəb müəllimlərinin iştirakı ilə geniş müşavirə keçirilmiş, rəy və təkliflər dinlənilmiş və müvafiq tövsiyələr verilmişdir.

- 2011-2012-ci tədris ilinə ümumtəhsil məktəblərinin VII-XI sinifləri üçün dərsliklərin hazırlanmasını və çapını təşkil etmək məqsədilə açıq tender (satınalma müsabiqəsi) elanına uyğun olaraq, həmin dərsliklərin proqramları yenidən işlənilmişdir.

- VII-XI siniflər üzrə yenidən işlənmiş proqramlar və onların qiymətləndirmə meyarları təsdiq edilmiş və tenderdə iştirak edən iddiaçı nəşriyyat-poliqrafiya müəssisələrinə təqdim olunmuşdur.

VII siniflər

“Rus dili”
təlim Azərbaycan
dilində
olan məktəblər üçün

“Russkiy yazık”
təlim rus dilində olan
məktəblər üçün

“Fransız dili”

“Literatura”

“Zoologiya”

“İnformatika”



VIII siniflər

“Rus dili”
təlim Azərbaycan
dilində
olan məktəblər üçün

“Russkiy yazık”
təlim rus dilində olan
məktəblər üçün

“Fransız dili”

“Alman dili”

“Azərbaycan
Respublikasının
fiziki coğrafiyası”

“Zoologiya”

“Azərbaycan
Respublikasının
iqtisadi və sosial
coğrafiyası”



IX siniflər

“Rus dili”
təlim Azərbaycan
dilində
olan məktəblər üçün

“Russkiy yazık”
təlim rus dilində olan
məktəblər üçün

“Fransız dili”

“Literatura”

“Biologiya”

“Yeni tarix”



X siniflər

“Russkiy yazık” təlim rus dilində olan məktəblər üçün

“Gənclərin çağırışaqədərki hazırlığı”

“İnsan və cəmiyyət”



XI siniflər

“Rus dili”
təlim Azərbaycan
dilində
olan məktəblər üçün

“Russkiy yazık”
təlim rus dilində olan
məktəblər üçün

“Gənclərin
çağırışaqədərki
hazırlığı”

“İnsan və
cəmiyyət”

“Fransız dili”



Azərbaycan Respublikasının xarici ölkələrdəki

Səfirliklərinə

“Bazar günü” məktəblərinə

Rusiya, ABŞ, Ukrayna, Belorusiya, Gürcüstan, Orta Asiya Respublikaları, Almaniya və başqa ölkələr







dərsliyi rəy bildirilmək üçün ingilis dilinə tərcümə olunaraq beynəlxalq təşkilatlara göndərilmişdir.

ərizə və məktublar



İl ərzində şöbəyə 2059 məktub və ərizə daxil olmuşdur.

Qrif alınması məqsədilə: 1733

Müxtəlif məqsədlərlə: 326

Onlar məzmunundan və mahiyyətindən asılı olaraq araşdırılmış,



tədbirlər görülmüş və vaxtında cavablandırılmışdır.

Nazirliyin əmri ilə ali və orta ixtisas təhsili müəssisələrindən daxil olmuş 1682 əlyazmasına nəşr hüququ (qrif) verilmişdir



Ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı məsələləri ilə bağlı Nazirliyin “Qaynar xətt”indən şöbəyə daxil olan şikayətlər, eləcə də rayon (şəhər) təhsil şöbələrinin müraciətləri diqqətlə araşdırılmış və lazımi tədbirlər görülmüşdür.





Məktəb kitabxanaları və Dünya Bankı ilə əməkdaşlıq



Ümumtəhsil məktəb kitabxanalarının iş fəlaiyyətinin yaxşılaşdırılması, kitabxana fondlarının zənginləşdirilməsi, nümunəvi məktəb kitabxanalarının yaradılması sahəsində müvafiq işlər görülmüşdür





Kataloq

- Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin 1.2-ci alt-komponenti (“Yeni tədris materiallarının hazırlanması və məktəb kitabxanalarının müasirləşdirilməsi”) (2009-2014-cü illər) çərçivəsində 2010-cu ildə müvafiq tədbirlər görülmüşdür.

Respublikada çap edilmiş bütün təlim və oxu materialları haqqında məlumatları özündə əks etdirən Kataloq hazırlanmış və çap edilmişdir.

Təhsil Nazirinin 18.02.2010-cu il tarixli, 11/79 nömrəli əmri ilə təsdiq edilmiş nümayəndə heyəti TSİİL çərçivəsində 9-17 aprel 2010-cu il tarixlərində Braziliyaya səfər etmişdir.

I, II və III sinif dərslik komplektlərinin tətbiqinin

Qiymətləndirilməsi

Müəllimlərə əməli kömək göstərilməsi

Monitorinqi

məqsədilə

2010-cu il noyabr ayının 29-u və 30-da Bakı və Sumqayıt şəhərlərində ibtidai sinif dərsliklərinin (xüsusilə “Musiqi”, “Təsviri incəsənət”) müzakirələri keçirilmişdir və bu barədə Nazirə təqdimat hazırlanmışdır.





Ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı, dərslik siyasətinin həyata keçirilməsi ilə bağlı dövri mətbuata müntəzəm olaraq məlumatlar verilmiş, televiziya kanallarında çıxışlar edilmişdir.

Görülən işlər barədə internetə məlumatlar ötürülmüşdür



Şöbənin əməkdaşları ümumtəhsil məktəblərinin IX və XI siniflərində mərkəzləşdirilmiş qaydada keçirilən sınaq və buraxılış imtahanlarında imtahan mərkəzinin rəhbəri və “İlin müəllimi” müsabiqəsində müxtəlif fənn müəllimlərinin açıq dərslərinin təşkili və keçirilməsində iştirak etmişlər.



Qarşıda duran vəzifələrimiz:



- Ümumtəhsil məktəblərinin IV sinifləri üçün kurikulum əsasında dərslik komplektlərinin və VII-XI siniflər üçün dərsliklərin hazırlanması və çapı ilə bağlı tender prosedurunun mövcud qanunvericiliyə uyğun keçirilməsini təmin etmək;

- Tender komissiyasına təqdim olunacaq dərslik komplektlərini və dərslikləri qiymətləndirmək üçün Dərslikləri Qiymətləndirmə Şurasına təqdim etmək və onun işini əlaqələndirmək;

- Dərsliklərin rus dilinə tərcüməsi keyfiyyətinin yaxşılaşdırılması məqsədilə ayrı-ayrı fənlər üzrə rusdilli müəllimlərin bankının yaradılması;

- Ümumtəhsil məktəblərinin II, IV, VII-XI sinifləri üçün dərsliklərin və müəllim üçün metodik vəsaitlərin mövcud qanunvericiliyə uyğun olaraq çapının təşkili və bölgü əsasında yerlərə vaxtında çatdırılması ilə bağlı müvafiq tədbirlər görmək;



- Ümumtəhsil məktəblərinin II, IV və VII-XI sinifləri üçün nəşri nəzərdə tutulan dərsliklərin və müəllim üçün metodik vəsaitlərin tirajının, həcminin, çap formatının və nəşr faizinin dəqiqləşdirilməsi üzərində müvafiq işlər görmək;

- 2011-2012-ci tədris ilinə nəşri nəzərdə tutulan dərsliklərin məzmununun, poliqrafik icra keyfiyyətinin yaxşılaşdırılması məqsədilə orta məktəb müəlimlərindən ibarət yaradılmış işçi qruplarının müəllif,elmi redaktor və nəşriyyatlarla birgə işini gücləndirmək;



- TQDK ilə əməkdaşlığı gücləndirmək;

-“Ümumi təhsil sistemində dərslik siyasəti” və onun tərkib hissəsi olan sənədlərin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlayıb rəhbərliyə təqdim etmək;

- Məktəb kitabxanalarının oxu materialları, o cümlədən bədii, tədris, ensiklopedik, sorğu xarakterli və digər ədəbiyyatlarla zənginləşdirilməsini təmin etmək;



- Xüsusi tipli məktəblər üçün və milli azlıqların dillərində dəsrliklərin hazırlanması, nəşri və çapı ilə bağlı müvafiq tədbirləri
davam etdirmək;

- Dərslik və dərslik komplektlərinin nəzəri,
təcrübi və texniki parametrlərinə,xüsusilə onlarda verilən materialların kurikulumun tələblərinə
uyğunluğuna,
təlim materiallarının planlaşdırılmasına dair vahid proqram və strategiya əsasında treninqlərin
keçirilməsinin təşkilini təmin etmək və bu sahədə müvafiq ölkələrin (o cümlədən Türkiyənin) təcrübəsinin öyrənilməsini davam etdirmək.

Məlumat üçün:







Diqqətinizə görə təşəkkür edirik!